**AZƏRBAYCAN RESPUBLİKASI**

Əlyazması hüququnda

# FƏLSƏFƏDƏ ANTROPOLOJI BÖHRANIN TARİXİ-ETİK TƏHLİLİ

İxtisas: 7210.01 – Fəlsəfə tarixi

Elm sahəsi: Fəlsəfə

İddiaçı: **Samirə Nazim qızı Dadaşova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2021**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun "Azərbaycan fəlsəfə tarixi" şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: fəlsəfə elmləri doktoru, dosent
**Dilarə Mirsəməd qızı Müslümzadə**

Rəsmi opponentlər: fəlsəfə elmləri doktoru, dosent
**Lalə Cəfər qızı Mövsumova**

fəlsəfə elmləri doktoru, professor
**Cahangir Rza oğlu Məmmədov**

fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
**Laçın Xalid qızı Həsənova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.33 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: fəlsəfə elmləri doktoru, professor
**İlham Ramiz oğlu Məmmədzadə**

Dissertasiya şurasının elmi katibi: fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
**Sevinc Arif qızı Həsənova**

Elmi seminarın sədri: fəlsəfə elmləri doktoru, professor
**Rafail Ayvaz oğlu Əhmədli**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Yaşanılan son onilliklər, mədəni dünyamızı qlobal böhranlar və sarsıntılar dünyası olaraq göstərdi, bu da son nəticədə ictimai inkişafın gedişatına konseptual olaraq yenidən nəzər salınmasını və baxışların yenilənməsini tələb edir.

Belə ki, müasir cəmiyyətin mənəvi tənəzzülünün tarixi-fəlsəfi təhlilin aktuallığı aşağıdakılarla müəyyən edilir:

Birincisi, qloballaşma və onu müşayiət edən mənfi və müsbət meyillər insanın əxlaqi və mənəvi mahiyyətini kökündən dəyişdirdi və bu da öz növbəsində insan problemlərinə və fəlsəfi antropologiyaya yeni metodoloji yanaşmaların nəzəri olaraq dərk edilməsinə ehtiyac olduğunu təsdiqləyir (məsələn, informasiya antropologiyası);

İkincisi, müasir mənəvi vəziyyət, mədəniyyət böhranının insan böhranına və müvafiq olaraq, humanizm böhranına keçdiyini dərkinə səbəb oldu. Ekoloji, demoqrafik, nüvə təhlükəsi və s. kimi qlobal problemlərlə yanaşı, ən vacibi və bütün bəşəri problemlərin özəyini təşkil edən amil insanlığın qorunub saxlanılması problemidir;

Üçüncüsü, sivilizasiyalar və mədəniyyətlər arasındakı qlobal dialoq fərdi, mədəni və milli kimliklərin böhranına gətirib çıxardı. Buna görə də insanın öz "Mən"i, milli "Mən"i və çoxmədəniyyətli "Mən"i ilə onları birləşdirə bilən humanist idealların ziddiyyətlərinin həlli tələb olunur;

Dördüncüsü, yeni dövrün qlobal bir əxlaqa ehtiyacı var, çünki onun xarakterik xüsusiyyəti insanın dünya mənzərəsinə plüralist baxışıdır. XX əsrin fəlsəfə tarixi kifayət qədər ziddiyyətli istiqamətlər və düşüncələrlə təqdim olunur. Bir çox etik konsepsiya irəli sürüldü: bəziləri əxlaqdakı fayda əmsalı dəyərləndirdi (utilitarizm), bəziləri universal təmələ sahib olmayan mədəniyyət atributu kimi qiymətləndirdi (metaetika), digərləri isə insan varlığı həyatın mənasız təzahürü kimi təqdim edirdi (ekzistensializm). Universal əxlaq paradiqmasının olmaması, etik idealların mahiyyətinin aşınmasına səbəb olur.

**Tədqiqatın işlənmə dərəcəsi.** Azərbaycan fəlsəfəsində araşdırdığımız mövzu təhlil edilən bütün problemlər kompleksində

təqdim edilməmişdir. Lakin, bu o demək deyil ki, bu problemin müəyyən məsələləri üzrə nəzəri işlər tamamilə yoxdur. İnsan problemlərinə olan maraq həm azərbaycanlı (İ.Məmmədzadə, A.Abasov, K.Bünyadzadə, R.Əzimova, A.Rüstəmova, F.İsmayılov, S.Xəlilov və s.)[1], həm də rus müəlliflərin (V. Kutıryov, S.Xrapov, P.Gureviç və başqaları)[2] çoxsaylı tədqiqatlarında öz əksini tapmışdır.

Fəlsəfə tarixindəki mənəvi və əxlaqi böhran probleminin araşdırılmasında M.Mamardaşvili, V.Stepin, N.Popkova, T.Adorno, K.Yaspers və digər mütəffəkirlərin fikirlərinə əsaslanmışıq.[3] Lakin tədqiqatların əksəriyyəti müasir insan təbiətinin əxlaqi əsaslarını və bu gün onun qarşısında duran xüsusi önəmli mənəvi çətinlikləri kənara qoyaraq yalnız mədəniyyət və sivilizasiyanın böhranı ilə əlaqəli sualları əhatə edir.

Antropoloji böhranın tarixi-fəlsəfi təhlili kifayət qədər geniş

---

[1] Мамедзаде, И.Р. Введение в этику / И.Р.Мамедзаде. – Баку: Муаллим, – 2004. – 159 с.; Абасов, А.С. Какая философия нужна современному Азербайджану // – Bakı: “Elm”, Müasir fəlsəfə və Azərbaycan: tarix, nəzəriyyə, tədris, – 2011, – с. 186-221.; Məmmədzadə, İ.R. Bir daha fəlsəfə haqqında: Müasir yanaşmalar. Təmayüllər. Perspektivlər / İ.R.Məmmədzadə. – Bakı: «Təknur», – 2012. – 216 s.; Məmmədzadə, İ. R, Məmmədzadə R. Xeyir və şər arasında / İ.R.Məmmədzadə, R.Məmmədzadə. – Bakı: Təbib, – 1993. – 51 s.; Bünyadzadə, K.Y. İnsan: kamilliyin arxitektonikasısi / K.Y.Bünyadzadə. – Bakı: “Zərdabi LTD”, – 2014. – 496 s; Əzimova, R.C. İnsan potensialı insan kapitalının fundamental əsası kimi // Həyat sosiologiyası: sosioloji və sosial-psixoloji problemlər. - Bakı: “Təknur”, – 2014. – s. 7-13.

[2] Гуревич, П.С. Проблема целостности человека / П.С.Гуревич. – М.: ИФ РАН, – 2004. – 177 с.; Колин, К.К. Информационная антропология: предмет и задачи нового направления в науке и образовании // Вестник КемГУКИ, – 2011. № 17, – с. 17-32.; Кутырёв, В.А. Унесённые прогрессом: эсхатология жизни в техногенноммире / В.А.Кутырёв. – СПб.: Алетейя, – 2016. – 300 с.

[3] Степин В.С. Цивилизация в эпоху перемен: поиск новых стратегий развития / Статьи и доклады // Журнал Белорусского Государственного Университета, №3. – 2017. – с. 6-11.; Попкова, Н.В. Антропологический кризис и его философский анализ // – Брянск: Изд-во БГТУ, Социально-гуманитарные исследования БГТУ, – 2009. – с. 36-56.; Мамардашвили М. Сознание и цивилизация. Тексты и беседы / М.Мамардашвили. – М.: «Логос», – 2004. – 272 с.; Адорно, Т. Проблемы философии морали / Т.Адорно. – М.: Республика, – 2000. – 239 с.; Ясперс, К. Смысл и назначение истории / К.Ясперс. – М.: Политиздат, – 1991. – 527 с. и др.

məsələlərə toxunur. Diqqətimiz əsasən müasir cəmiyyətin böhranın etik aspektlərinə və postmodern dövrün qarşısında duran vəzifələrə yönəlib.

Dissertasiya tədqiqatının nəzəri əsasını geniş fikirlər və konsepsiyalar təşkil edir. İlk öncə, öz yaradıcılığı ilə yeni etik ideallara və insan problemlərinin yeni səpkidə səslənməsinin yol açmasında və bu səbəblərdən cəmiyyətin müasir inkişafının öyrənilməsinə töhvə verən antroposentrik dönüşün "liderlərini" – Avropada Alman fəlsəfəsinin klassikləri I. Kant, A. Şopenhauer və F. Nitsşeni, Azərbaycanda – A. Bakıxanov, M. F. Axundov və H. b. Zərdabini qeyd etməsi zəruridir.

Müasir insanın etik problemləri, filosof İ. Məmmədzadə tərəfindən 15 ildən çox əvvəl yazılmış, lakin bu günə qədər aktuallığını itirməmiş "Etikaya giriş" əsərində dərindən nəzərdən keçirilmişdir. Bu əsərində filosof Maarifçilik dövründən başlayan antropoloji dönüşün mənşəyini də araşdırmışdır. "*Maarifçilik dövrünün keçmişi haqqında təsəvvürlərimizi dəqiqləşdirərkən müasirliyi daha yaxşı anlamaq, eyni ilə, çağdaş dövrü dərk etməyə çalışarkən keçmiş haqqında anlayışımızı genişləndirmək olar. Maarifçilik xalqın (millətin) və fərdin, vətəndaşın bilikləri, məsuliyyəti və suverenliyi, həm də cəmiyyətdə elmin dəyərlərinin, birlik, toplum və insan üçün məsuliyyətin bərqərar olmasına gətirib çıxarması ilə bağlıdır*"[1] - filosof İ. Məmmədzadə iddia edir. Məhz müasirliyi və onun əxlaqi toqquşmalarını başa düşmək cəhdləri kontekstində Maarifçiliyin görkəmli ideoloqlarını tədqiqatımızda araşdırmışıq. Azərbaycan maarifçilik fəlsəfəsi tarixindəki antroposentrik fikirlərin öyrənilməsində həm korifeylər Z. Göyüşov və H.Hüseynovun əsərlərinə, həm də Z.Quluzadə, N.Vəlixanlı, A.Hacıyeva, N.Məmmədov və başqalarının əsərlərinə də əsaslanmışıq.[2]

---

[1] Məmmədzadə İ.R. Azərbaycan maarifçiliyi müasirliyimizin kontekstində // İdentiklik və multikulturalizm: metodologiya, tendensiyalar və perspektivlər (beynəlxalq elmi konfransın toplusu). – Bakı: AMEA Fİ, – 2018. – s. 10-21.

[2] Геюшев, З.Б. Мировоззрение Г. Зардаби / науч. ред. и автор пред. И.Мамедзаде. – Баку: Текнур, – 2014. – 544 с.; Hüseynov, H.N. Azərbaycanda XIX əsr ictimai və fəlsəfi fikir ta rixindən / H.N.Hüseynov. – Bakı: "Şərq-Qərb", –

Alman fəlsəfəsi klassiklərin əsərlərinin məzmununun açılmasında həm rus alimləri N. Motroşilova, Y. Sineokaya, həm də A. Danto, S. Sveyq, E. Kassirer kimi qərb alimlərinin tədqiqatları mühüm rol oynamışdır.[1]

Cəmiyyətin mənəvi potensialının əsası kimi götürdüyümüz humanist ideallar dünyəvi humanizm kontekstində nəzərdən keçirilmişdir. Tədqiqat zamanı dünyavi humanizmin plüralist şüurla xarakterizə olunduğu üçün real şəraitdə ideal konsepsiya olmadığı qənaətinə gəldik. Zənnimizcə, daha ahəngdar qeyri-zorakılıq universal fikri kimi xarakterizə olunan bioetik dünyagörüşüdür (A. Şveitser).[2] Mövcud olan hər şeyə qarşı mənəvi məsuliyyət, hörmət və sevgi ilə yanaşması, eləcə də başqalarına zərər verməməsi və şəxsiyyətin özünü inkişaf etdirməsi ilə səciyyələnən qeyri-zorakılıq ideyası nisbətən yeni bir elm – bioetikanın əsasında qoyulur.

Azərbaycanda bioetikanın elmi istiqamətinin banisi akademik Həsən Əliyev hesab olunur.[3] Lakin, yalnız 2010-cu ildə AMEA-nın İnsan Hüquqları İnstitutunda Bioetika və Tibbi Hüquq şöbəsi yaradılmışdır. Ölkəmizdə ənənələr və İslam dininin şəxsiyyətlərarası münasibətlərin tənzimlənməsində əsas rol oynamasına baxmayaraq, son onilliklər ərzində bioetika spesifik elm sahəsi kimi populyarlıq qazanır. Qeyd etmək lazımdır ki, hələ 2005-ci ildə Mehriban Əliyeva

---

2007. – 400 s.; Quluzadə, Z.Ə. Qədim dövrdən XX əsrin 20-ci ilinədək azərbaycan fəlsəfəsi (oçerk) / Şərq fəlsəfəsi problemləri jurnalı. – 2012; Hacıyeva, A.Ə. Şeyxilik və M. F. Axundzadə: fəlsəfi-tarixi oçerk // Bakı, “Elmi əsərlər”, – 2014. № 2 (23), – s. 19-35.

[1] Мотрошилова, Н.В. История философии: Запад-Россия-Восток / в 3х кн. Философия XIX-XX вв. / Н.В.Мотрошилова. – М.: «Греко-латинский кабинет» Ю. Шичалина, – 1999. – 448 с.; Синеокая, Ю.В. Три образа Ницше в русской культуре / Ю.В.Синеокая. – М.: ИФРАН, – 2008. – 197 с.; Кассирер, Э. Жизнь и учение Канта / пер. М. Левиной. – СПб: Университетская книга, – 1997. – 447 с.; Данто, А. Ницше как философ / А.Данто. – М.: Идея-Пресс, – 2001; Цвейг, С. Борьба с безумием: Гёльдерлин, Клейст, Ницше; Ромен Роллан. Жизнь и творчество // Цвейг, С. Собрание сочинений: в 10 т. – М.: ТЕРРА, – 1996. – 512 с. и др.

[2] Швейцер, А. Благоговение перед жизнью / А.Швейцер. – М.: Прогресс, – 1992. – 572 с.

[3] Ramazanov, F. Bioetika – tarixi və müasirliyi // Fəlsəfə (elmi-nəzəri jurnal), – 2006. № 1 (2), – s. 47-55.

bioetikanın mahiyyətini göstərməklə "Evtanaziya və təbabətdə humanizm problemi" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. Yerli ədəbiyyatın təhlili göstərir ki, ölkəmizdəki bioetik problemlərin əhatəsi kifayət qədər genişdir və yalnız ənənəvi tibbi etikanı deyil, ətraf mühitin şüuru və qloballaşma problemlərini də əhatə edir. Lakin, əksər əsərlər ya məhz tibbi və yaxud hüquqi xarakter daşıyır.[1] Bioetika məhz fəlsəfi aspektində professorlar İ.Məmmədzadə və F.Ramazanov, eləcə də N.Gələndərlinin əsərlərində təqdim edilmişdir, lakin geniş yayılmamışdır.[2] Təqdim etdiyimiz işdə biz həmçinin bioetika fenomeni insan-cəmiyyət, insan-təbiət, insan-maşın münasibətlərində ortaya çıxan bir çox əxlaqi problemi həll etməyə qadir olan fəlsəfi bir vəzifə kimi nəzərdən keçirməyə çalışmışıq. Bioetikanın əsasları araşdırarkən müasir bioetika nəzəriyyəçiləri – V. R. Potter, H. Yonas, B. Yudin, S. Pustovit, M. Sass, T. Engelqart və başqalarının əsərləri tədqiqatımıza cəlb etmişdik.[3]

Antropoloji böhrandan çıxmağın yollarının araşdırılması birbaşa postmodern dünyagörüşünün təhlili ilə bağlıdır. Postmodernizm ideoloqlarının (M. Fuko, J. Bodriyar J. Liotar və s.) əsərləri ilə yanaşı, müasir analitiklərin (R. Rzayeva, V. Kutıryov, D. Dubrovskiy, K. Kolin, V. Yemelin və s.) bu mövzuda olan əsərləri də

---

[1] Cavadlı, G. İslam və bioetika / G.Cavadlı. – Bakı, – 2017. – 366 s.; Həmidov, Ə.M., Həmidova, Z. İntellektual ekologiya. – Bakı: «Elm və təhsil», 2012; Bioetika, tibbi hüquq və yeni texnologiyalar / Mustafayeva A. İ. və s. – Bakı: İnsan Hüquqları İnstitutu, AMEA, 2013. – 354 s.

[2] Ramazanov, F. Bioetika – tarixi və müasirliyi // Fəlsəfə (elmi-nəzəri jurnal), – 2006. № 1 (2), – s. 47-55; Мамедзаде, И.Р. Введение в этику / И.Р.Мамедзаде. – Баку: Муаллим, – 2004. – 159 с.; Каландарли, Н.Г. Концепция мира и ненасилия в контексте философии и культуры // Dirçəliş XXI əsr, – 2009. №133.

[3] Поттер, В.Р. Биоэтика: мост в будущее / В.Р.Поттер. – Киев: Видавець, – 2002. – 216 с.; Пустовит, С.В. Глобальная биоэтика: становление теории и практики (философский анализ) / С.В.Пустовит. – Киев: Арктур-А, 2009. – 324 с.; Юдин, Б.Г. Человек: выход за пределы (сборник) / Б.Г.Юдин. – М.: «Прогресс-Традиция», – 2017. – 620 с.; Engelhardt, T. Bioethics, Fritz Jahr and the Culture Wars: Moral Reflection in the Face of Intractable Moral Pluralism, in: Muzur A, and Sass H.M, eds, Fritz Jahr and the Foundations of Global Bioethics. – Paris, – 2012. – P. 181-192.

tədqiq edilmişdir.[1] Bununla yanaşı, vəzifəmiz sadəcə son onilliklərdə kifayət qədər yaxşı öyrənilmiş postmodernizmi araşdırmaq deyil, onu aradan qaldırılması lazım olan bir böhran dövrünün ideologiyası kimi təhlil etməkdir. Yəni postmodern dövrün yaratdığı mənəvi tənəzzülə adekvat cavab vermək bizim üçün önəmlidir.

Bir çox qlobal problemlərin həlli metodlarından və yollarından biri olaraq, mədəniyyətlərarası dialoq və multikulturalizm siyasətini irəli sürdük. Bu gün sosioloqların və filosofların multikulturalizm haqqında bir-birinə zidd olan fikirləri çoxdur. S. Hantinqton, P. Adler, V.Yemelin və digər Qərb və Rusiya tədqiqatçıları multikulturalızmi "bizim" və "digərlərinin" arasındakı fərqi gücləndirən akkulturasiya siyasəti kimi (bir mədəniyyət dominant mədəniyyətə inteqrasiya və ya assimilyasiya olunmuş) xarakterizə etdikləri halda, Azərbaycan tədqiqatçılar (İ.Məmmədzadə, İ.Hüseynova, A. Guliyev, Ş. Zeynalov və s.) fərqinə varmışlar ki, aydın fərqlər və onları anlamaq və qəbul etmək istəyi digər mədəniyyətlərin ifrat assimilyasiyaedici təsirlərindən qorunmağı təmin edə bilər.[2]

Dissertasiya işimizdə multikulturalizm siyasətinin davamlı inkişafa və qloballaşmanın yaratdığı bir çox problemin həllinə töhfə verdiyini qənaətinə gəldik. Bu baxımdan mədəni / milli kimlik məsələsi xüsusi ilə diqqətlə nəzərdən keçirilir. İşimizin kontekstində əhəmiyyət kəsb edən mədəniyyətlərin dialoqu və onların müxtəlifliyi

---

[1] Рзаева, Р.О. Постмодерн и мультикультурализм: междисциплинарный дискурс / Р.О.Рзаева. – Баку: «Elm və təhsil», – 2015. – 300 с.; Дубровский, Д.И. Биологические корни антропологического кризиса. Что дальше? // Человек, – 2012. № 6, – с. 51-54.; Емелин, В.А. Человек технологический. Трансформация идентичности в условиях развития информационного общества // Философские науки, – 2015. № 2, – с. 154-157.

[2] Мамедзаде, И.Р. О философии мультикультурализма // Вопросы философии, – 2016. № 10; Гусейнова, И.М. Концепция мультикультурализма в контексте современной науки // – Баку, Политика, – 2018. №4 (94), №5 (95) – с. 30-35.; Гулиев, А.Дж. Толерантность – основа стабильности / Каспiй, – 2018. № 196, – с. 13.; Zeynalov, Ş.Ə. Dialoq mədəniyyəti və kommunikasiya müasir inkişafin hərəkətverici qüvvəsi kimi // «Elmi əsərlər», – 2019. № 1(32). – s. 55-61.

problemləri birbaşa akademik R. Mehtiyev, professor İ. Məmmədzadə, D. Müslümzadə, R. Aslanova, R. Rzayeva, Ş. Zeynalov və digər filosofların və tədqiqatçıların əsərlərində öz əksini tapmışdır.[1]

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiya işinin obyekti müasir insan və cəmiyyətin mənəvi sahəsidir. Tarixi-fəlsəfi tədqiqatın predmeti antropoloji böhranın mahiyyəti, mənşəyi və nəticələridir. Əxlaq böhranının təhlilinə tarixi-fəlsəfi yanaşma, tək müəyyən tarixi dövrlərdə böhranın öyrənilməsi ilə deyil, onun kök səbəblərinin və məntiqi inkişafının müəyyənləşdirilməsi ilə xarakterizə olunur.

**Tədqiqatın məqsədi və vəzifələri.** Dissertasiya işinin əsas məqsədi antropoloji böhranın tarixi-fəlsəfi kontekstində etik əsaslandırılmasıdır. Qarşıya qoyulan məqsədlə əlaqədar olaraq aşağıdakı vəzifələr vurğulanır:

- müasir Qərb fəlsəfəsi tarixindəki antropoloji fikirlərin yaranma və inkişafını təhlil etmək, eləcə də XIX-XX-ci əsrlərdə Azərbaycan fəlsəfəsi tarixindəki antropologiyanın fəlsəfi-etik konsepti araşdırmaq;
- mənəvi amilin ictimai həyatda rolun və əhəmiyyətinin təhlili əsasında müasir cəmiyyətdəki antropoloji böhranın səbəblərini, inkişafını və təzahürlərini müəyyənləşdirmək;
- müasir fəlsəfədə dünyəvi humanizmin inkişaf amillərini müəyyənləşdirmək və tədqiq etmək;
- həm Qərb, həm də Azərbaycan fəlsəfə tarixində bioetika

[1] Mehdiyev, R.Ə. Yeni siyasət: İnkişafa doğru / R.Ə.Mehdiyev, II cild. – Bakı: Oskar, – 2008. – 343 s.; Mehdiyev R.Ə. Azərbaycan: qloballaşma dövrünün tələbləri / R.Ə.Mehdiyev. – Bakı: «XXI – Yeni Nəşrlər Evi», – 2005. – 464 s.; Məmmədzadə, İ.R. Bir daha fəlsəfə haqqında: Müasir yanaşmalar. Təmayüllər. Perspektivlər / İ.R.Məmmədzadə. – Bakı: «Təknur», – 2012. – 216 s.; Mammadzadeh, I.R. The multicultural nature of Azerbaijani space as seen by exponents of Azerbaijani culture // Geopolitical, Social Security and Freedom Journal, Vol. 1, Issue 2. – 2018; Aslanova, R.N. XXI əsr: Yeni mədəniyyət məkanına inteqrasiya / R.N.Aslanova. – Bakı: "Nurlan", – 2007. – 440 s.; Муслимзаде, Д.М. Экономическое (гражданское) общество и государство: философско-этический анализ проблемы / Д.М.Муслимзаде. – Баку: Нурлан, – 2009. – 270 с.

fenomeninin yaranma səbəblərini araşdırmaq və onun mahiyyətini açmaq;

- postmodernizmi böhran dövrünün ideologiyası kimi araşdırmaq;
- mədəniyyətlərin dialoqunu və multikulturalizm siyasətini qloballaşma dövründə davamlı inkişafın əsas amili kimi əsaslandırmaq;
- müasir sivilizasiyanın qlobal problemlərinin həllində etikanın əhəmiyyətini və rolunu müəyyənləşdirmək;
- antropoloji böhrandan çıxmağın perspektivlərini müəyyənləşdirmək.

**Tədqiqatın metodoloji əsasları.** Tədqiqat metodologiyası qarşıya qoyulmuş vəzifələrə uyğun olaraq formalaşır. İlk öncə, tədqiqat sahəsini nəzərdən keçirmək üçün deduksiya və induksiya, müqayisəli təhlil metodları və tarixi-fəlsəfi rekonstruksiya kimi nəzəri yanaşmalar tətbiq olunub.

Metodoloji əsas kimi, fəlsəfi-antropoloji yanaşma seçildi ki, bu da müəyyən dövrlərdə şəxsiyyətin fəaliyyəti və dəyər yönümlülüyü nəticəsində başverən mədəniyyətin transformasiyasının müxtəlif aspektlərini nəzərdən keçirməyə imkan verir. Tədqiqat işində cəmiyyətin mənəvi vəziyyətini təhlil etmək, müasir mədəniyyətin əxlaqi oriyentirlərini müəyyənləşdirmək üçün vacib metodlarından biri aksioloji yanaşma tətbiq edilmişdir. Tədqiqat metodologiyası obyektin təhlilin bütün mərhələlərində sistematik və dialektik metodların istifadəsi də əhatə edir, çünki insanın böhranı özündə və öz proseslərində deyil, əlaqəli hadisələr və proseslər ilə qarşılıqlı əlaqədə nəzərdən keçirilmişdir. Bu yanaşmalar, bizə mədəniyyətin bütövlükdə yaşadığı dəyişikliklər sayəsində mənəvi təməllərin transformasiyasını izləməyə imkan verdi.

Elmlərin qarşılıqlı təsirinin bütün bilik sahələrində elmi tədqiqatların aparılmasını təmin edən əsas vasitə olduğunu nəzərə alaraq, tədqiqat işində konvergent yanaşma tətbiq edilmişdir ki, bu da öz növbəsində, müasir cəmiyyətdəki sosial-mədəni və akseoloji dəyişikliylərin hərtərəfli təhlilini təmin etmişdir.

**Müdafiə çıxarılan əsas müddəalar:**

- müasirliyə əhəmiyyətli təsir göstərdikləri üçün etik anlayışların öyrənilməsi haqlı olaraq tarixi-fəlsəfi tədqiqatlarda mühüm yer tutur;

- qloballaşma prosesləri nəticəsində Avropa mədəniyyəti və Avropa insanın böhranı bütün dünyanı əhatə edən geniş miqyaslı bir xüsusiyyət qazandı;

- antropoloji böhranın səbəbi ənənəvi əxlaqla real həyat şərtləri arasında uyğunsuzluğa səbəb olan texnoloji tərəqqidən əhəmiyyətli dərəcədə geri qalan fərdi və kollektiv şüurdur;

- antropoloji böhranın mahiyyəti, bir-biri ilə sıx bağlı olan iki mövcudluqdur:

1. insanın yaratdığı "texniki" dünya onu məhdudiyyətlərə və yüklərə məhkum edərək müəyyən müstəqillik qazanır,

2. insana qorxu, özünə inamsızlıq və "bu dünyaya atılması" hissləri hakim kəsilir: texniki nikbinlik ("texnika hər şeyi həll edir") tədricən pessimizmlə əvəzlənir ("insan texnikanın quludur");

- antropoloji böhranın əsas təzahür formaları dünyagörüşünün transformasiyası, total biotexnolojiləşdirilməsi və identiktliyin itirilməsidir;

- antropoloji böhranın mövcudluğu bütün icmalar üçün məqbul olan ümumbəşəri etik paradiqmanın yaradılmasını zəruri edir.

Müdafiə üçün təqdim edilmiş müddəaların etibarlılığı iddiaçının istifadə etdiyi çoxsaylı nüfuzlu mənbələr, həmçinin tədqiqatın bütün hissələrində ardıcıl olaraq açıqlamalarını almış nəticələr ilə təsdiqlənir.

**Tədqiqatın elmi yeniliyi** fəlsəfədəki antropoloji böhranın tarixi-etik əsaslandırılmasından ibarətdir. Tədqiqatçının töhvəsi aşağıdakı müddəalarda konkretləşdirilmişdir:

- tədqiqatda antropoloji böhranın vahid konsepsiyası qurulmuş və təhlil edilmişdir, habelə müasir insanın mənəvi təbiyəti və fəaliyyəti, böhranın mahiyyəti və təzahürləri təhlil edilmişdir;

- bioetika fenomeni yalnız universal fəlsəfi paradiqma kimi deyil, həm də müasir cəmiyyətin bir çox mənəvi toqquşmalarını həll edə biləcək bir vəzifə kimi nəzərdən keçirilmişdir;

- mədəniyyətlərin dialoqu və multikulturalizm siyasətinin

sosial-fəlsəfi şərhi verilmişdir. Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən Azərbaycan multikulturalizm modeli sərhədləri ləğv etməyən və mədəniyyətlərin müxtəlifliyi və potensiallarının reallaşması üçün şərait yaradan, habelə əməkdaşlıq və sülh ideyaları üzərində qurulan ümumbəşəri etik düşüncə kimi təqdim edilmişdir. Əgər bioetika qlobal əməkdaşlığı və münaqişə vəziyyətlərinin real həllini təşviq edən fənlərarası nəzəri platformadırsa, mədəniyyətlər arası dialoq və multikulturalizm siyasəti onun praktiki təzahürüdür.

- araşdırma və tənqidi təhlil nəticəsində müasir postmodernizm ideologiyasının əsasında duran mövcud etik konsepsiyalarının uyğunsuzluğu göstərilmişdir. Eyni zamanda insanın mənəvi və əxlaqi reallığına effektiv təsir üsulu kimi postmodernizm ideologiyasının ağıllı realizmlə əvəz olunmasının məqsədəuyğun olduğunu göstərilmişdir. Qlobal problemlərin həlli mövqeyindən ağıllı realizmi nəzərdən keçirdən müəllif müasir insanın yeni təkamül şüurun formalaşmasında əxlaqın tərbiyəsi və öyrənilməsinin vacib rolunu vurğulayır.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Tədqiqat çağdaş antropoloji problemlərin bütöv şəkildə qurulmasının təcrübəsidir. Ümumiyyətlə, əsər nəzəri xarakter daşıyır, onun nəticələri Azərbaycan fəlsəfəsinin üfüqünü, o cümlədən insanın əxlaq dünyası problemi ilə bağlı müəyyən mövzuları genişləndirməyə imkan verir. İddiaçının irəli sürdüyü nəticələr müasir cəmiyyətin mənəvi vəziyyətinin hərtərəfli təhlilinə kömək edir, çünki, antropoloji problematikası sosial və humanitar biliklərdə bir sıra məsələləri müəyyənləşdirir və tarixi-fəlsəfi düşüncədə perspektivli artımı nəzərdə tutur.

Əsas müddəalar yalnız fəlsəfə tarixində deyil, etik və sosial fəlsəfədə də postmodern dövründə insanın və onun əxlaqi əsasları problematikasının gələcəkdə daha ətraflı araşdırılması üçün elmi baza olaraq xidmət göstərə bilər. Tədqiqat nəticələri həmçinin sosiologiyada müasir şəxsiyyət tipini təyin etmək, və ya kulturologiyada subyektin mədəniyyətin inkişafındakı rolunu müəyyənləşdirmək üşün tətbiq oluna bilər.

Antropoloji böhranın öyrənilməsinin nəticələrinin praktik əhəmiyyəti, həyatın bütün sahələrində ahəngdar əlaqələrin planlaşdırılması və qurulması, habelə qlobal məkanında yaşanan qarşıdurmaların aradan qaldırılması üçün istifadə oluna bilər.

Dissertasiya işinin materialları və əsas nəticələri etik təlimlərin tarixi daha ətraflı öyrənilməsini və onların ali təhsil müəssisələrində "Fəlsəfə tarixi" fənninə daxil edilməsini təklif edilir.

Tədqiqat işi "Bioetika" fənninin təhsil standartının məcburi fənnlər siyahısına daxil edilməsinin zəruriliyini göstərir. Bununla birlikdə, bu fənn ənənəvi tibb etikası ilə məhdudlaşmamalı və ya müstəsna hüquqi xarakter daşımamalıdır. Müəllif bioetik biliklərin *həyat fəlsəfəsi* kimi qlobal bioetikaya sistemləşdirilməsini təklif edir ki, bu da indiki və gələcək zaman üçün məsuliyyətə əsaslanan yeni humanist paradiqmanın formalaşmasına töhfə verməyə qadirdir.

**Tədqiqat işinin aprobasiyası.** Tədqiqat işinin əsas məzmunu, müddəaları və nəticələri 10 elmi məqalədə öz əksini tapmışdır, onlardan 7 məqalə Ali Attestasiya Komissiyası tərəfindən tövsiyə olunan yerli və xarici elmi jurnallarda dərc edilmişdir (bir məqalə ERIH PLUS bazasına daxildir). Eləcə də müəllif tədqiqat problemləri ilə birbaşa əlaqəli kitablara elmi rəy yazmışdır (biri həm-müəllifli olmaqla). Tədqiqatın materialları 9 respublika və beynəlxalq miqyaslı elmi konfrans və konqreslərdə də müzakirə edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Təqdim olunan tədqiqat işi Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Sosiologiya İnstitutunda "Azərbaycan fəlsəfə tarixi" şöbəsində yerinə yetirilmiş və müzakirə olunmuşdur.

**Dissertasiya işinin strukturu və həcmi.** Tədqiqat işi 145 kompüter səhifəsində təqdim olunub, giriş – 12 səhifə (19858 işarə), I fəsil – 38 səhifə (64679 işarə), II fəsil – 34 səhifə (58150 işarə), III fəsil – 32 səhifə (55350 işarə), nəticə – 9 səhifə (14367 işarə) və azərbaycan, rus, ingilis dillərdə olan istifadə olunmuş 178 adda ədəbiyyat siyahısından – 18 səhifə ibarətdir. Dissertasiya işinin ümumi həcmi (ədəbiyyat siyahısı istisna olunmaqla) – 212396 işarə həcmindədir.

## İŞİN ƏSAS MƏZMUNU

Geosiyasi gerçəklikliyin dəyişikliklər və yeni dünya nizamının meydana gəlməsi ətraf mühitdəki təhdidlərin qarşısını almaq, mədəniyyətlər/dövlətlər arasında qarşılıqlı əlaqə və birlik yaratmaq istəyi kimi müsbət tendensiyalara səbəb oldu. Eyni zamanda, böhran əxlaq və mənəviyyat sahəsini əhatə etməyə davam edir. Bəşəriyyət varlığı və yoxluğu ayıran xəttə yaxınlaşdı. Cəmiyyətin müasir vəziyyəti antropoloji fəlakət kimi xarakterizə olunur – insanda insanilik məhv edilməsi, həyatın bütün aspektlərin texnolojiləşdirilməsi və bunun nəticəsi olaraq da, insanın mənəvi, mədəni və tarixi identifikasiyasının ənənəvi formaların aradan qaldırılması. Akademik R. Mehdiyev qeyd edir ki: "*Tarixdə ilk dəfə olaraq Şekspirin ritorik "olum, ya ölüm" sualının bəşəriyyət qarşısında duran problem kimi yeni səpkidə səsləndiyi və yeni məna kəsb etdiyi bir dövrə qədəm qoymuşuq*".[1] İlk növbədə, bu, planetar inkişaf xüsusiyyətləri və dünyanın qloballaşması ilə əlaqədardır.

Bu proseslərin əsas səbəbini əksər hallarda müasir cəmiyyətin mənəvi tənəzzülünün aydın aşkar olmamasında və ya şüursuzluğunda görürük. Çünki siyasi və iqtisadi böhranlar insanın həyatına gözə çarpan təsir göstərirsə, mənəvi deqradasiya tam olaraq dərk edilmir və bu səbəbdən də mənəvi təməllərin müəyyən problemlərinin nəzərə alınmamasına gətirib çıxarır. Bu baxımdan yeni tarixi şəraitdə ictimai hadisələrin və XX-XXI əsrlər fəlsəfə tarixindəki etik ideалların rolunun öyrənilməsinə obyektiv ehtiyac yaranır.

Bu tədqiqat işi *"müasir cəmiyyətin insan təbiətindəki patoloji və digər mənfi tendensiyalara səbəb olan və fərdi potensialını əhəmiyyətli dərəcədə azaldan mənfi meyllərin"*[2] ümumi nəticəsi olan müasir antropoloji böhrana və onun fəlsəfədəki etik əsaslarına həsr edilmişdir.

Etik dəyərlər mədəniyyətin mənşəyindən müasir dövrə qədər

---

[1] Mehdiyev, R.Ə. Azərbaycan: qloballaşma dövrünün tələbləri / R.Ə. Mehdiyev. – Bakı: «XXI – Yeni Nəşrlər Evi», – 2005. – S. 121.

[2] Демиденко, Э.С. Философия социально-техногенного развития мира: статьи, понятия, термины / Э.С.Демиденко, Е.А.Дергачева, Н.В.Попкова. – Брянск: БГТУ; М.: Всемирная информ-энциклопедия, – 2011. – 388 с.

sosial davranış orientirləri təyin edə bilir. Bu ideal və ya əxlaq standartı bütün bəşəriyyət tarixini əhatə edir və cari əsrdə qlobal problemlərin kəskinləşməsi nəticəsində beynəlmiləlləşir.

Dissertasiyanın **“Giriş”** hissəsində mövzunun aktuallığı, işlənmə dərəcəsi, tədqiqatın obyekt və predmeti, məqsəd və vəzifələri, elmi yeniliyi, nəzəri-metdoloji əsasları, elmi-nəzəri və praktiki əhəmiyyəti öyrənilmişdir.

**"Antropoloji problematika və onun XIX-XX əsrlər fəlsəfəsindəki nəzəri əsasları"** adlanan birinci fəslində həm Qərb fəlsəfəsi tarixində, həm də Azərbaycan Maarifçilik fəlsəfəsində antroposentrik fikirlərin formalaşması nəzərdən keçirildi. Böhranın mahiyyətinə dair fəlsəfi anlayış onun mənşəyinin, eləcə də onun mədəni-dəyər fəaliyyətinin inkişaf xüsusiyyətlərinin nəzəri baxımdan müəyyənləşdirilməsini tələb edirdi. Əlbətdə ki, ifadə olunan etik anlayışlar heç də tarixi-etik prosesin zənginliyini, XIX-XX əsrlərdə etik təlimlərin tarixinin müxtəlifliyini tükəndirmir, lakin etikanın əsas istiqamətləri və məzmunu haqqında təsəvvür ortaya qoyur. Bununla yanaşı, dissertasiyanın birinci fəslində nəzərdən keçirilən antroposentrik fikirlərin formalaşması və təşəkkül tapması prosesi artıq müasir dövrdə bu problemin bir çox xüsusiyyətlərinə aydınlıq gətirir.

Məsələn, **1.1 "Qərb fəlsəfəsi tarixində antropoloji fikirlərin təşəkkülü (İ. Kant, A. Şopenhauer, F. Nitsşe)"** adlı paraqrafdaki aparılan təhlil nəticəsində Alman fəlsəfəsi ideoloqlarının təfəkkür vektorunun təkamülündə əhəmiyyətli dəyişikliklərə səbəb olmalarını təyin edildi: İ. Kantın azad iradəsi, insan ləyaqəti və “içimdəki mənəvi qanun”u insanın əməlləri üçün, özü və bütövlükdə cəmiyyət üçün məsuliyyət etikasının nəzəriyyələşdirilməsinə səbəb oldu; A. Şopenhauerin bütün canlılara şəfqət etikası insanla təbiət arasında əxlaqi münasibətlərin qurulmasına kömək etmişdir; F. Nitsşenin güclü iradəsi və "bütün dəyərlərin yenidən qiymətləndirilməsi" yalnız şəxsiyyətin ucaldılmasını deyil, həm də "Tanrının ölümü" nümaiş etdi, bu da dəyişkən düşüncəyə gətirib çıxartdı. Əgər İ. Kant və A. Şopenhauerin fəlsəfi konsepsiyaları "müxtəlif" bəşəriyyətin sülh içində yaşaması üçün universal etik prinsiplərin əsasını təşkil edirdisə, F. Nitsşe fəlsəfəsi mədəniyyətin mənəvi tənəzzülünü daha

da artıran etik relativizmin əsaslarını qoydu. Lakin bu, F.Nitsşenin fəlsəfəsindəki şüurlu mənfi mesajı ifadə etmir, sadəcə müasir insanın Nitsşenin postulatlarını tətbiq etməyə hazır olmamasını göstərir. Çünki, *"bu – bəşəriyyətin hər böyük müəlliminin bədbəxtliyidir: O bilir ki, bir nemətə çevrilə biləcəyi kimi, halların xoşagəlməz birləşməsi altında bəşəriyyət üçün pis dahi də ola bilər".*[1]

Eyni zamanda, **1.2 "Azərbaycan Maarifçilik fəlsəfəsində antropologiyanın fəlsəfi-etik konsepti"** adlı paraqrafdaki araşdırma göstərdi ki, dini düşüncədən qurtulmaq və dünyəvi bir cəmiyyətin formalaşması, insana inam və fövqəltəbii qüvvələrə inanmamaq bizim cəmiyyətimiz üçün də xarakterikdir. Azadlıq istəyi və milli hisslərin oyanması Azərbaycan maarifçilərinin əsərlərində geniş vüsət alır. Məhz bu dövrdə yaradılan yeni Azərbaycan mədəniyyəti sonradan milli identikliyin ideoloji əsasına çevrildi.

Aydındır ki, Azərbaycan cəmiyyətinin mənəvi inkişafının tarixi-fəlsəfi təhlili bizə öyrəşdiyimiz müasir görkəmi qazanmadan əvvəl mədəniyyətin necə inkişaf etdiyini anlamağa imkan verdi. Məsələn, M. F. Axundov hesab etdiyi kimi İslam dini "istehza obyektinə" çevrilməsə də, İslam tərəqqi və sivilizasiya ruhuna uyğun şəkildə islah olunmasına öz töhfəsini verdi. Və bu, qadınların azadlığına, gender bərabərliyinə və bütün kişi və qadınların məcburi savadlılığına səbəb oldu. Həmçinin, H. Zərdabinin etikası bir tərəfdən dinə qarşı mübarizədə, insan ləyaqəti ideyasını kütlələrin şüurunda gücləndirir, digər tərəfdən isə insanı cəmiyyətin mənafeyi üçün şəxsi mənafelərindən uzaqlaşmağa çağırırdı. Bu da, mədəniyyətin "kütləvi hal" almasına səbəb oldu. Eyni zamanda, Azərbaycan mütəfəkkirlərinin əsərlərin müsbət nəticələrindən biri də maarifçilik ideallarını yetişdirməklə yanaşı, müasir dünyanın qurulması və qorunub saxlanmasının ayrılmaz hissəsi kimi dialoq mədəniyyətinin formalaşdırılması idi.

Bununla birlikdə, maarifçilər, tarixi tərəqqinin cəmiyyətin mənəviyyatsızlaşması və tənəzzülü ilə müşayiət olunmayacağına

---

[1] Письмо Ф. Ницше Мальвиде фон Мейзенбуг от мая 1884 г. // Эбаноидзе, И. Письма Фридриха Ницше / И. Эбаноидзе. – М.: Культурная революция, – 2007. – 400 с.

sadəlövhcəsinə inanaraq, elmin cəmiyyəti daha ağlabatan şəkildə dəyişdirə biləcəyini, bir çox antropoloji problemlərə son qoyacağını təsdiq edirdilər. Bu günün zirvəsindən baxdıqda, elmdə inqilabi sıçrayışa və onun kütlələr arasında yayılmasına baxmayaraq, insanların problemləri azalmadığını, üstəlik elmin bir sıra əxlaqi dilemmalar yaratdığını çox açıq şəkildə görürük. H. Zərdabinin *“insan elmdən istifadə edərək bütün dünyanı, bütün təbiəti özünə tabe edə bilir”* ifadəsi indi bizim üçün o qədər də nikbin səslənmir.

Beləliklə, antroposentrik fikirlərin formalaşmasının öyrənilməsi göstərir ki, fəlsəfə dünyanın elmi və dini əsaslandırılması arasında bir sıra ziddiyyətlər və uyğunsuzluqlarla qarşılaşır. Dini düşüncə hələ də mədəni mühitin əsas amillərindən biri olaraq qalsa da, bəzi fəlsəfi kateqoriyaların (məsələn, qeyri-zorakılıq ideyası, xoşməramlılıq, iradə azadlığı, etik universalizm, etik normativizm) aktuallaşdırılması ilə əlaqədar olaraq əvvəlki fanatik formasını itirir. Yəni, keçmiş əsrlərin etik konsepsiyalarının tarixi-fəlsəfi təhlili ortaya çıxan bir çox insan problemləri haqqında fərqli düşünməyə və bu səbəbdən insanın dünyadakı yeri və roluna yenidən nəzər salmağa imkan verdi. Dissertasiyanın birinci fəslində müzakirə olunan problemlərin hər biri müəllifin dərc etdiyi elmi məqalələrdə təhlil edilmişdir.[1]

Tədqiqatın **"Antropoloji böhranın etik əsaslandırılması" adlı ikinci fəsli** birbaşa olaraq antropoloji böhranın xüsusiyyətlərinə və təzahürlərinə həsr edilmişdir. Cəmiyyətin mövcud vəziyyətinin öyrənilməsi antropoloji böhranın ilk növbədə dünya sisteminin total informasiyalaşdırılması və texnolojiləşdirilməsi şəraitində xüsusi aktuallıq qazanan mənəvi/əxlaqi böhran olduğunu göstərdi. Müasir

---

[1]Дадашова, С.Н. Теоретические основы современных антропологических проблем в философии И. Канта, А. Шопенгауэра и Ф. Ницше // – Вена: Premier Publishing, The European Journal of Humanities and Social Sciences, – 2019. № 2, – с. 124-128; Дадашова, С.Н. Свободная воля как основа морального действия: Шопенгауэр vs Кант // – Тамбов: «Грамота», Манускрипт, – 2019. Т.12, № 6 (104), – с. 108-113; Дадашова, С.Н. Фридрих Ницше: по ту сторону религии и морали // – Москва: Институт Философии РАН, История Философии, – 2020. Т.25, № 1, – с. 39-48; Дадашова, С.Н. Ретроспективный взгляд на проблему религии и морали в философии просвещения (М.Ф. Ахундов, Г.б. Зардаби) // – Баку: Институт Философии и Социологии НАНА, Elmi əsərlər, – 2020. № 1 (34). – с. 129-138.

mədəniyyətə qətiyyətlə daxil olan texnika, insanın cəmiyyətdəki və ümumiyyətlə təbiətdəki humanist münasibətləri ilə əlaqədar bir çox mübahisəli problemlərə səbəb oldu. İnsanın dəyər istiqamətləri dəyişir. Həm zehni, həm də fiziki əmək metodlarını və ünsiyyət üsullarını dəyişdirən texnogen sivilizasiya mütləq hakimiyyət meyarına əsaslanır (daxili və xarici təbiət üzərində hakimiyyət).

Eyni zamanda, XX əsr saysız-hesabsız fəlakət və iztirabları ilə dünya və bir çox vətəndaş müharibələrinin əsrinə çevrildi ki, bu da fəlsəfi fikirlərin inkişaf təbiətinə təsir göstərməyə bilməzdi. Humanist ideologiyası da böhran yaşamağa başladı.

**2.1 "Müasir fəlsəfədə humanizmin inkişaf meylləri"** adlı paraqrafda mənəvi tənəzzülün heç də humanizmin sonuna gətirib çıxarmadığı göstərildi. Əksinə, humanist fikirlər K. Lamont, P. Kurz və digər humanistlərin simasında dünyəvi xarakter alaraq yeni qüvvə ilə alovlandı. Mövcud antropotexnik problemləri həll etmək istəyi ilə əlaqədar olaraq müasir humanizmin, xüsusən dünyəvi humanizmin öyrənilməsi mənəvi böhranın təhlilinin məntiqi davamı kimi təqdim olunur.

Mükəmməl nəzəriyyə olmasına baxmayaraq, dünyəvi humanizmin zəifliyi, onun tərəfindən ziddiyyətli meyillərin yaranmasıdır: bir tərəfdən o, azadlıq və məsuliyyət prinsiplərinə əsaslanan ideologiyasının ümumiləşdirilməsi üçün çalışır, digər tərəfdən azadlığı alan müasir insan məsuliyyətdən imtina edir. Nəticədə, məhdudiyyətsiz və sərhədsiz azadlıqlar cəmiyyətin mənəviyyatsızlaşmasına səbəb olur. Azadlıq cəmiyyətdə və bütövlükdə təbiətdə harmonik münasibətlər qurmaq üçün zəruri şərt olsa da, ixtiyari seçim etmək bacarığı mənasında deyil, yaradıcılıq potensialını reallaşdırmaq, varlığı qanunlarına uyğun olaraq təbiətini mükəmməlləşdirmək mənasında düşünülməlidir.

**2.2 “Bioetika problemlərin fəlsəfi anlayışı”** adlı paraqrafda tərəfimizdən nisbətən yeni bioetika elmi nəzərdən keçirilmişdir. Bioetika fenomenin araşdırması, onun A.Şveytserin qeyri-zorakılıq etikası ruhuna uyğun olduğunu göstərdi (*"həyata hörmət"*): bütün mövcud məxluqlara hörmət və sevgi, eləcə də başqalarına zərər verməmək və fərdin özünün inkişaf etdirməsi yeni elmin əsasını təşkil etdi. Etik oriyentirlərin tənəzzülündə mədəniyyətin

geriləməsini görən Şveytser, müasir dünyada sivilizasiyanı əxlaqla, mədəniyyəti etikayla birləşdirməkdən daha vacib, həyati əhəmiyyət daşıyan tapşırıq olmadığını göstərir və bu vəzifə yalnız bütün bəşəriyyətin problemi deyil, eyni zamanda hər bir fərdin vəzifəsidir.

Qeyd etmək lazımdır ki, bioetikanın mənşəyi və inkişafının təhlili göstərmişdir ki, bir sıra Azərbaycan (A. Mustafayeva, V. Məmmədov və s.), eləcə də Rusiya tədqiqatçılarının çoxu (P. Tişenko, B. Yudin və b.) yanlış olaraq hesab edirlər ki, "bioetika" terminini ilk dəfə Amerika onkoloqu P. Van Ranseler tərəfindən istifadə olunmuşdur. Əslində, Ranseler yalnız alman ilahiyyatçısı Yar Fritzin ideyalarını məşhurlaşdırmışdır. Hələ 1926-cı ildə, yəni təxminən yarım əsr əvvəl, Fritz bioetika məfhumunu əsaslandırdığı "Həyat və mənəviyyat haqqında elm" kitabını yazmışdır.[1] Baxmayaraq ki, Fritz, onun ardınca isə Ranseler bioetika anlayışına müvafiq antropoloji problemlərin praktiki həlli üçün tibbi, ekoloji, sosial və hüquqi sahələrin tədqiqinə etik məsələlərin bütün spektrini daxil etdilər, ötən əsrdə belə bir əhatəli etika utopiya kimi qəbul edilirdi və bioetika tibbi etika ilə əvəz edilirdi. Bu, ilk növbədə, müstəqil ekoloji etika məktəbinin mövcudluğu ilə diktə olunmuşdur. Lakin, bugünkü mənəvi vəziyyət bizə başqa qaydalar diktə edir: bu gün qlobal bioetika nəinki bio/tibbi, spesefik ixtisaslarla bağlı məsələləri həll etmək cəhdi kimi, həm də ətraf mühitin xilas edilməsi, insanın həyat fəaliyyətinin total texnolojiləşdirilməsi ilə bağlı və s. məsələləri həll etmək üçün zəruridir. Bundan başqa, qloballaşma prosesləri, bütün bəşəriyyəti konkret mədəniyyətlərə aid olmayan problemlərlə üz-üzə qoyur. Bu halda, bioetika mədəniyyətlərarası mövqeyi qəbul edərkən, sosial və mənəvi problemlər və elmi maraqlar arasında vasitəçi olaraq, dövlətlərin/təşkilatların/cəmiyyətlərin tənzimlənməsini, nəzarətini, fəal müzakirəsini və qarşılıqlı fəaliyyətini təmin etməlidir.

Bioetika fenomeninin tədqiqi göstərdi ki, müasir bioetika insan və texnologiyaların təbiətinin dəyişməsində və onların bütün bəşəriyyətə potensial təsirində radikal hərəkət görür. Qlobal

---

[1] Fritz J. Wissen schaft vom Leben und Sittenlehre, Mittelschule 40, – 1926. № 45, – P. 604-605.

bioetikanın demarkasiyası biotexnologiyaların istifadəsi ilə sıx bağlıdır (biomüxtəlifliyin itirilməsi, insanın kiborqlaşması, süni intellekt və s.). Artıq bu gün əminliklə demək olar ki, insan hansı yolu seçməsindən asıllı olmayaraq, o, identikliyin transformasiyası amilini və insan şəxsiyyətini müəyyənləşdirərək texnoloji baxımdan təchiz olunacaq. Dissertasiyanın ikinci fəslində araşdırılmış problemlər müəllifin dərc etdiyi elmi məqalələrdə təhlil edilmişdir.[1]

Dissertasiyanın **"Antropoloji böhranın aradan qaldırılmasının perspektivləri" adlı üçüncü fəsli** böhran vəziyyətindən çıxış yollarının tapılmasına həsr olunub. Mövcud problemlər, sosiokultural genomun yenidən düşünülməsinə gətirib çıxardı və bu da öz növbəsində, filosof V. Stepin güman etdiyi kimi, *"yeni sivilizasiya inkişafın növünə aparan ilk addımdır"*.[2] İnsanın transformasiya prosesləri yalnız onun mahiyyətinə, sözün əsl mənasında insanlıq anlayışına yenidən baxılmağa məcbur edir, həm də maddi və mənəvi dəyərlərin rasional çevrilməsinin obyektiv zəruriliyi ilə şərtləndirilən yeni şüurun formalaşmasını tələb edir. Əslində, keçən əsr kimi, indiki əsr də texnologiyanın insan təbiətinə təsiri ilə xarakterizə olunur. *"Buna görə də, "insandan sonrakı bir gələcək mümkündürmü?" suala cavab verməyə çalışdığımız zaman*, - V. Lektorskiy yazır, - *anlamalıyıq ki, söhbət yalnız nə gələ biləcəyindən deyil, həm də bugünkü insan fəaliyyətinin istiqamətindən, hazırlanan və həyata keçirilməyə başlayan layihələrdən gedir"*.[3]

**3.1 "Postmodernizmdən ağıllı realizmə doğru"** paraqrafında göstərilib ki, azadlığın yaratdığı etik plüralizm təkcə dünyəvi humanizmi səciyyələndirmir, o, bütün postmodernist

---

[1]Дадашова, С.Н. Антропологический кризис: философско-этический дискурс // – Баку: НАНА, "Elm", Общественные науки, –2020. № 1, – с. 94-104; Дадашова, С.Н. От локальной этики к сложной реальности // – Баку: Совет молодых ученых и специалистов НАНА, Gənc tədqiqatçı, –2020. VI ч., № 2, – с. 171-178.

[2] Степин В.С. Цивилизация в эпоху перемен: поиск новых стратегий развития / Статьи и доклады // – Журнал Белорусского Государственного Университета. – 2017. №3, – с. 6-11.

[3] Лекторский, В.А. Возможно ли постчеловеческое будущее? // Человек и его будущее: новые технологии и возможности человека. – М.: Ленанд, – 2012. – 496 с.

dünyagörüşünün mahiyyətidir. Bugünkü əxlaq ciddi çərçivələrlə məhdudlaşmır: onu müxtəlif cür yozmaq, bəzən bir-birinə zidd olan müxtəlif hallara uyğunlaşdırmaq olar. Postmodernizm, ənənəvi fikirləri devirərək insana yeni konstruktiv metanarativlər təklif etmir ki, bu da müasir dəyərlərin yayılması probleminə və nəticədə mənəvi tarazlığa səbəb olur.

Bu gün, postmodern dövrün böhranından danışarkən, etik mübahisələr, ilk növbədə, "kütləvi mədəniyyət" (ideallarn və baxışların unifikasiyası) ideologiyasında köklənən dünyagörüşün transformasiyası və şəxsiyyətin itkisi problemləri ətrafında aparılır. Fərdin kütləyə qoşulmasının tək yolu şəxsi məsuliyyəti inkar etməyin və eləcə də əxlaqi idealların ləğv edilməsidir. Çünki kütlənin öz düşüncəsi olmadığı halda əxlaqı da ola bilməz. Əxlaq yalnız sərbəst və şüurlu şəkildə, fərdin hər kəsə yönəlmədiyi, hamı kimi olmamağa çalışmadığı, lakin özü və başqaları ilə harmoniyada yaşadığı bir cəmiyyətdə həyata keçirilir. E. Frommun fikrincə, harmoniya içində yaşamaq yalnız *"cəmiyyətdəki şüursuzluq şüurlu fərdi və sosial həyat tərzinə çevrildikdə"* mümkün olacaqdır.[1] Bu səbəbdən insanın əsas məqsədi özü olmaq, həm özü üçün, həm də ətraf mühüt üçün insan olmaqdır. Məhz bu prinsiplər universal etika olaraq ağıllı realizmin əsasını təşkil edir. "Ağıllı" dedikdə fərdi xoşbəxtlik və ictimai rifahın harmonik tarazlığı nəzərdə tutulur. Ağıllı realizm yalnız insanın real problemlərini qəbul etmək deyil, onları həll etməyin yollarını tapmaq istəyinə əsaslanır. Burada insan təbiətinə və ətrafdakı dünyaya təkamül baxışı əsas amildir.

**3.2 "Qloballaşma dövründə mədəniyyətlərarası dialoq davamlı inkişaf amili kimi (Azərbaycan Respublikasının timsalında)"** paraqrafda göstərilmişdir ki, əgər bioetika texniki və sosial-humanitar elmlər arasında körpülər salırsa, multikulturalizm müxtəlif mədəniyyətlər və cəmiyyətlər arasında əlaqələndirici halqadır.

Mədəniyyətlərarası dialoq və multikulturalizm siyasətinin öyrənilməsi yalnız ekoloji təhlükəsizlik və iqtisadi səmərəliliyi deyil, həm də sosial ədaləti təmin etmək üçün davamlı inkişafa töhfə verdiklərini göstərir. Multikulturalizm və mədəniyyətlərarası dialoq

---

[1] Фромм, Э. Гуманистический психоанализ / Э. Фромм, под ред. В. Лейбина. – СПб.: Питер, – 2002. – 544 с.

fərqli cəmiyyətləri bir araya gətirib, eyni zamanda, gərginliyi və potensial qarşıdurmanı məhdudlaşdırır, sosial birliyi artırır.

Xüsusən vurğulamaq lazımdır ki, Azərbaycanda məqsədyönlü mədəniyyətlərarası dialoq siyasətinin əsasları ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Professor İ. Məmmədzadə H. Əliyevin xatirəsinə həsr edilmiş "Müasir dövrün çağırışları və mədəniyyətlərin dialoqu" adlı əsərində qeyd etmişdir ki, 1970-ci illərdə ölkəmizdə mədəniyyətlərarası dialoqu təmin etmək üçün tədbirlər görməyə başlanmışdır, hələ o zaman uzaqgörən siyasətçi *“mədəniyyət olmadan rasional siyasət və iqtisadiyyat ola bilməyəcəyini ... mədəniyyətdə yeganə silah dialoq və hörmət olduğunu"* dərk etmişdir.[1]

Antropoloji böhran işığında “mədəniyyətlərarası dönüşü” bəşəriyyətin üzləşdiyi real çətinliklərə ciddi cavabdır. Buna görə böhranlar və müsbət meyillər ilə səciyyələn müasir global dünya mədəniyyətlərarası dialoq və mədəni müxtəliflik kimi əsas anlayışların mənasına nüfuz etmədən başa düşülə bilməz. Dissertasiyanın üçüncü fəslində araşdırılmış məsələlər müəllifin dərc etdiyi elmi məqalələrdə təhlil edilmişdir.[2]

İnsan böhranı – varlığın əsl mənasını, üstəlik “mənaya inam”ın (M.Fuko), Tanrıya və tərəqqiyə inamın itirilməsi ilə səciyyələnən bir çox sosial-mədəni proseslərin nəticəsidir. Neoliberalizm, insan fəaliyyətinin və hətta özünün rəqəmsallaşması,vizual dəyərlərin semantik dəyərlərdən daha yüksək qiymətləndirilməsi müasir cəmiyyətin əsas xüsusiyyətlərindəndir ki, bunun da nəticəsində qloballaşan texnogen dünyada humanizmin nailiyyətləri əhəmiyyətli dərəcədə dəyərdən düşür.

---

[1] Мамедзаде И. Р. на презентации в Москве книги «Диалог культур и вызовы современной эпохи»: [Электронный ресурс] / URL: https://vestikavkaza.ru/news/Knigu-o-Geydare-Alieve-Dialog-kultur-i-vyzovy-sovremennoy-epokhi-prezentovali-v-Moskve.html?utm_cp (дата обращения: 24.04.2020).

[2] Дадашова, С.Н. Антропологический кризис: философско-этический дискурс // – Баку: НАНА, “Elm”, Общественные науки, – 2020. № 1, – с. 94-104; Дадашова, С.Н. Мультикультурализм и культурная идентичность в эпоху глобализации // – Баку: НАНА, “Elm”, Общественные науки, – 2020. № 2, – с. 119-126.

Mənəvi böhran kontekstində etik anlayışların təhlilini təqdim edən bu tədqiqat işi, universal aksioloji müddəaların əldə edilməsinə, onların elmi dövriyyəyə daxil edilməsinə, eyni zamanda bəşəriyyətin üzləşdiyi qlobal problemləri və ziddiyyətləri həll etmək məqsədi ilə bütün cəmiyyətlərdə eyni səviyyədə praktiki olaraq tətbiq olunmasına yönəlmişdir.

**Nəticədə** tədqiqatın əsas elmi yeniliklər göstərilməklə onların əhəmiyyəti əsaslandırılıb. Beləliklə, insanın böhranından danışarkən, ilk növbədə, insan münasibətlərinin mənəvi təhriflərini, insan təbiyətinin texnolojiləşdirilməsini və şəxsin öz mənliyin itirilməsini nəzərdə tuturuq. Ən yeni texnologiyalar determinasiyanı təbiətdən texnikaya keçməsini təyin edən mədəniyyətin mövcudluğunun yeni moduslarını, varlığın yeni mexanizmlərini təqdim edir. Məhz elm və texnologiyaların insanın gündəlik həyatına nüfuz etməsinin dərinliyi, təqdim etdiyimiz problemin qoyuluşunun xarakterini əhəmiyyətli dərəcədə müəyyən edir. Zənnimizcə, insanın əxlaqi mahiyyətinin fəlsəfi anlayışı olmadan, elmi-texnoloji nailiyyətlərin praktiki reallaşdırmasına yönəlmiş bütün cəhdlər cəmiyyətin inkişafı üçün gözlənilməz nəticələrlə gətirib çixara bilər, çünki əxlaqın əsas şərti insanla cəmiyyət, təbiət, texnologiya və ən əsası özü ilə münasibətlərini tənzimləməkdir. Bu baxımdan elmi idrak proseslərinin təhlili yalnız onun metodoloji, epistemoloji və məntiqi əsaslarının öyrənilməsi ilə məhdudlaşmamalıdır, aksioloji əsası da inkişaf etdirmək zəruridir. Fəlsəfənin formalaşdırdığı humanist və sosial-etik prinsiplər bilavasitə idrak prosesində iştirak etməli və onun bütün mərhələlərində tənzimləmə funksiyasını yerinə yetirməlidir. Bu gün fəlsəfə və etika elm və texnikaya öz tənzimləyici təsirini göstərməli, elmi kəşflərin dünyaya gətirdiyi səmərə və zərər, xeyir və şər, eləcə də insan təbiəti və özünü qoruyub saxlamaq üçün malik olduğu məsuliyyət haqqında ictimai rəyi tədricən dəyişməlidir. Fikirimizcə, mövcud problemlərin yenidən nəzərdən keçirilməsi insanı böhran vəziyyətindən çıxara bilər. Biz özümüzə hesabat verməliyik ki, *“insan özünü kəşf etməyə məhkumdur”* (J.P.Sartr) və buna görə də biz daim mövcudluğumuzun şərtlərini yaxşılaşdırmağa cəhd etməliyik.

**Dissertasiyanın əsas məzmunu müəllifin çap olunmuş aşağıdakı tezis və məqalələrində öz əksini tapmışdır:**

1. Теоретические основы современных антропологических проблем в философии И. Канта, А. Шопенгауэра и Ф. Ницше // – Vena: Premier Publishing, The European Journal of Humanities and Social Sciences, – 2019. № 2. – s. 124-128.
2. Этическое обоснование экологического кризиса в философии // Gənc tədqiqatçılar konfransın materialları, – Bakı, Qərbi Kaspi Universiteti: – 19 aprel, – 2019, – s. 179-181.
3. Межкультурный диалог как основной фактор укрепления всеобщей основы прав человека // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş “Heydər Əliyev: Multikulturalizm və tolerantlıq ideologiyası” adlı II beynəlxalq elmi konfransın məruzələrinin tezisləri, – Bakı, Azərbaycan Dillər Universiteti: – may 2019, – s. 135-137.
4. Свободная воля как основа морального действия: Шопенгауэр vs Кант // – Tambov: «Грамота», Манускрипт, – 2019. Т.12, № 6 (104), – s. 108-113.
5. Философский аспект влияния информационных технологий на общественное развитие // “İnformasiya təhlükəsizliyin aktual multidissiplinar elmi-praktiki problemləri” V respublika konfransın əsərləri, – Bakı, AMEA, İnformasiya Texnologiyaları İnstitutu: 29 noyabr, – 2019, – s. 192-194.
6. Преломление идей Ф. Ницше в нацистской теории «германства» // – Kanada, Ukrayna: CPM «ASF», Virtus, – 2019. № 38. – s. 12-15.
7. Фридрих Ницше: по ту сторону религии и морали // – Moskva: REA-nın Fəlsəfə İnstitutu, История Философии, – 2020. Т.25, № 1, – s. 39-48.
8. Ethical Issues of Nanotechnologies // AMEA-nın 75 illiyinə həsr edilən Gənc alim və mütəxəssislərin II beynəlxalq elmi konfransı. Fundamental və tətbiqi elmlərin müasir problemlərinin həllində multidissiplinar yanaşma (toplu), – Bakı, AMEA: 11 mart, –2020, – s. 402-403.

9. Thinking Ethically about Environmental Biotechnology // IV Paris Beynəlxalq Sosial elmlər Konfransın özet kitabı, – Fransa, Paris: 27 aprel, – 2020, – s. 29-30.
10. Ethics of Technology: The Impact of Technologies on Human life // I Beynəlxalq Etik Kongresin kitabı, – Türkiyə, Ankara: 1 iyun, – 2020, – s. 78-80.
11. «Коронованная» весна, или как научиться танцевать под дождем // "Pandemiya dövründə fəlsəfə" mövzusunda konfransın tezislərinin elektron almanaxı, – Bakı: AMEA FSİ: 6 iyun, – 2020, – s. 36-40.
12. Антропологический кризис: философско-этический дискурс // – Bakı, AMEA: "Elm", Sosial Elmlər jurnalı, – 2020. № 1, – s. 94-104.
13. The Foundations of Bioethics in Azerbaijani Philosophy // Van Beynəlxalq Sosial elmlər Konfransın özet kitabı, – Türkiyə, Van: 1 avqust, – 2020, – s. 68.
14. Ретроспективный взгляд на проблему религии и морали в философии просвещения (М.Ф. Ахундов, Г.б. Зардаби) // – Bakı: AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, Elmi əsərlər, – 2020. № 1 (34), – s. 129-138.
15. Рецензия на книгу И. Мамедзаде «Философия о современности, истории и культуре (о контурах историко-культурной эпистемологии)» // həmmüəllif: f.e.d. D.Müslümzadə / – Bakı: AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, Elmi əsərlər, –2020. № 1 (34), – s.145-150.
16. Карабах – это Азербайджан! Размышления о справедливой войне: [Elektron resurs], – Bakı: AMEA Fəlsəfə və Sosiologiya İnstitutu: 12 oktyabr, – 2020. / URL: http://philosophy.edu.az/index.php?newsid=894.
17. Мультикультурализм и культурная идентичность в эпоху глобализации // – Bakı, AMEA: "Elm", Sosial Elmlər jurnalı, – 2020. № 2, – s. 119-126.
18. От локальной этики к сложной реальности // – Bakı: AMEA Gənc Tədqiqatçılar və Mütəxəssislər Şurası, Gənc tədqiqatçı, – 2020. VI cild, № 2, – s. 171-178.

19. Выбирая себя, мы выбираем всех людей // – Bakı: Qərbi kaspi Universiteti, Elmi xəbərlər, – 2020. № 4, – s. 169-181.
20. Reflecting on the problem of national identity crisis in the context of intercultural interaction // Aya Sofya beynəlxalq Sivilizasiya, mədəniyyət və sosial elmlərdə multidissiplinar araşdırmalar Kongresin kitabı, – Türkiyə, İstanbul: 5-6 may, – 2021, – s. 115-118.

Dissertasiyanın müdafiəsi 27 yanvar 2022-ci il tarixində saat 11:00 Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.33 Dissertasiya şurasının şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1143, Bakı şəhəri, Hüseyn Cavid prospekti 115, Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutu, 9-cu mərtəbə, konfrans zalı.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 27 dekabr 2021-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 17.12.2021

Kağızın formatı: A5

Həcm: 40643

Tiraj: 50